# İKINCI NÜMUNƏ, ADƏM VƏ NUHUN ÖVLADI

<"xml encoding="UTF-8?>

İKINCI NÜMUNƏ, ADƏM VƏ NUHUN ÖVLADI

Allah bəzi vaxtlar öz qardaşının qətlinə əl bulaşdırmış, öz atasını əzadar edən və xülasə dünya qatillərinin qabaqcılı yəni həzrəti Adəmin övladından yad [edərək, onun nifrətedici işini danlamışdır.[1

Digər dəfə isə Həzrəti Nuhun naxələf övladından söz açaraq, onun atasının yolundan ayrılmağını, atası ilə müxalifliyini, onun göstərişlərini dəyərləndirməməsini və Tanrı əzabının nazil olmasını adi hesab etməsini .xatırlayır

Öz qoca atasının xeyirxahlığına və nəsihətinə qulaq asmadı və hətta onun yeganə nicat və azadlıq vasitəsi olan atasının düzəltdiyi gəmiyə minməkdən belə imtina etdi. Ürəkyanan ata hər nə qədər onu boğulmaqdan saxlamaq üçün gəmiyə minməyə dəvət etdisə, etinasız şəkildə atasının dəvətini rədd etdi. Tanrıya qarşı düzgün anlayışı və sağlam görüşü olmadığından haqqın misilsiz qüdrəti :barəsində, atasının cavabı olaraq belə dedi

�Ír$t«y 4�n<Î) 9@t6y_ ÓÍ_ßJÅÁ÷èt ÆÏB Ïä!$yJø9$#»[2]»

Yəni “Mən dağa dırmaşacağam və dağın zirvəsində yer tutacağam ki məni suda .”boğulmaqdan saxlasın

O nadanlıq və xamlıq üzündən təsəvvür edirdi ki, su hər nə qədər çox olsa, yer və :göydən fəvəran etsə heç vaxt dağın zirvəsinə çatmayacaq. Nuh (ə) buyurdu

«لا عاصم اليوم من أمرالله» [3]

Yəni “Bu gün Tanrının əzabından səni heç bir şey qorumayacaq”. Nəhayətdə batil .düşüncə və yersiz tərsliyi, onu suda boğdu və Tanrının dərdli əzabına düçar etdi

Quran bəzi yerlərdə saleh və layiqli övladlardan söz açır. Bəzi digər yerlərdə isə layiqli və səlahiyyətli övladı xüsusi vurğulayaraq, qiymətli və yaxşı övladın kamil .nümunəsi kimi qələmə verir

---

Maidə surəsi, ayə 37-41 - [1]

Hud surəsi, ayə 43 - [2]

Hud surəsi, ayə 43 - [3]